*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin* ELMİ ƏSƏRLƏRİ № *32,* 2022
НАУЧНЫЕ ТРУДЫ Азербайджанского Государственного Университета Культуры и Искусств № 32, 2022
SCIENTIFIC PAPERS *of Azerbaijan State University of Culture and Arts* № 32, 2022

**UOT 72:[730]**

**Nərminə Xəlil qızı Rzayeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Müəllim**
**E-mail: art_critic_90@mail.ru**

# MEMARLIQ MƏKAN MÜHİTİNDƏ ELMİRA HÜSEYNOVANIN MEMORİAL HEYKƏLTƏRAŞLIĞININ ƏHƏMİYYƏTİ

**Xülasə:** Məqalədə Əməkdar rəssam, heykəltəraş Elmira Hüseynovanın memarlıq məkan mühitində müxtəlif dövrlərdə yaratdığı abidələr haqqında məlumat verilmişdir. Elmira Hüseynova özünü monumental xatirə heykəltəraşlıq sahəsində də sınamış və bu yolda böyük uğur əldə etmiş sənətkarlardandır.

Elmira Hüseynovanın memorial heykəltəraşlıqda yaratdığı abidələr əsasən I Fəxri Xiyabanda ucaldılmışdır: Mehdi Hüseyn, Cəfər Cabbarlı və Rəsul Rzanın xatirəsinə həsr olunmuş qəbirüstü abidələr. Lev Landaunun memorial lövhəsi isə sənətkarın son işlərindən sayılır.

**Açar sözlər:** Heykəl, memorial, memarlıq, abidə, plastika, kompozisiya

XX əsrdən başlayaraq, xüsusən İkinci Dünya Müharibəsindən sonrakı illərdə Azərbaycan heykəltəraşlığında xatirə abidələri inkişaf etməyə başlamış və müstəqil janra çevrilmişdir. Bu dövrdə yerli heykəltəraşlar tərəfindən yaradılmış nümunələr sübuta yetirir ki, respublikanın heykəltəraşlıq məktəbinin formalaşdığı bu mərhələdən etibarən memorial heykəltəraşlıqdakı kompozisiya imkanları növbəti inkişafının bünövrəsi qoymuşdur. Belə heykəltəraşlardan biri də Azərbaycan heykəltəraşlıq məktəbinə 1960-cı ildə gəlmiş Əməkdar rəssam Elmira Hüseynovadır.

“Zərif cinsin cəsarətli nümayəndələrindən olan Elmira Hüseynovanın yaradıcılığının təhlili heykəltəraşlıqda qadın əlinin zərifliyi, onda zərbə gücünün olmaması ilə bağlı formalaşmış stereotipin əksinə olaraq, sənətkarın öz peşəsinə xidmətinin bariz nümunəsidir. E.Hüseynovanın həyat və yaradıcılığı onun incəsənətdə öz fərdi yolunun, həyatda və sənətdə “seçim” sözünün mahiyyətini dərk etmiş qadının yolunun müəyyən edilməsinə təsir göstərmiş qanuna uyğunluqların və müxtəlif vəziyyətlərin formalaşmasından ibarətdir” [1. s.66].

Elmira Hüseynovanın memorial xatirə abidələri ilə tanış olduqda onun yaradıcılığının müəyyən spesifik cəhətlərini və işləmə üslublarını aydınlaşdırmağa imkan yaranır. Bu cəhətlərdən biri fiqurlara möhkəmlik və monolitlik verən formanın böyük səylə, dəqiqliklə işlənməsidir. Onun yaratdığı

abidələrin əsas xüsusiyyətlərindən biri də onlardakı psixologizmi və müasirliyimizin tariximizlə əlaqələndirilməsidir. Heykəltəraşın I Fəxri Xiyabandakı işlərindən biri Azərbaycanın Xalq yazıçısı, dramaturq, tənqidçi və ictimai xadim Mehdi Hüseynin 1966-cı ildə yaradılmış memorial abidəsidir. Bu memorial abidə sadə, lakin əhatəli bədii tutuma malik olması və professional həllinə görə seçilir. Bütöv blok sal qaya daşın təbii halı, onun girintili-çıxıntılı fakturası abidəyə xüsusi effekt verir. Bloku belə "hal"a salmaq müəllifin professionallığından xəbər verir və nəticədə iş çox əzəmətli-cəlbedici baxılır. Yazıçının qorelyef portreti qranitin üzərində, yuxarı hissədə işlənib.

Müəllif portretdəki heyrətamiz keçidlər və sərt cizgilər vasitəsi ilə bütün formaya məharətlə harmoniya və dərin poetiklik verə bilmişdir. Portretdəki "sərt" lirizm və düşüncəli hal yazıçı ruhunu daha da qabartmışdır.

Əsərin maraqlı tərəfi burada simmetriyanın pozulması ilə çərçivəsi olmayan sərhədsizliyin bir simvolik məna daşımasıdır. Portretin məhz nahamar, kənarları sanki yonulmamış böyük bir daş parçasının üzərində olması yazıçının bitməyən, sərhədsiz arzularına işarə edir. Abidənin aşağı hissəsində "Xalq yazıçısı Mehdi Hüseyn", onun doğum və ölüm tarixinin qeyd edildiyi hissə ümumi kompozisiya quruluşunu prinsipial formasına ziyan vurmadan daşın içində oyularaq həkk edilmişdir. Abidənin qara mərmər üzərində parlaq formada və yaxud buna bənzər daha dəbdəbəli ifadə tərzində verilməməsi heykəltəraş tərəfindən xarakterik uyğunluq hesab edilməklə yanaşı, həm də standartlardan yayınaraq yeni forma axtarışı, fərdi üslubu ilə izah etmək mümkündür.

İri planda daşın təbii fakturası üzərində yonulmuş portret daha əzəmətli və xatirələrə hopmuş lirik təsiri ilə diqqəti çəkir. Dalğalanmış saçlar, qürurlu baxış, ciddiyyətlə yanaşı bütün insanlığa məhəbbətlə dolu olan daxili aləmin simaya vurmuş təzahürü xarakterliliyi tərənnüm edir. Heykəltəraş üçün məqsəd sadəcə portret təsviri deyil, təəssürat yaratma anlayışıdır. Bu mənada sanki daşın içindən oyularaq boylanan obraz öz təbii, inamlı görünüşü ilə diqqəti çəkir.

Görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının Fəxri Xiyabandakı məzarı (1968) üzərindəki barelyef kompozisiyası da Elmira Hüseynovanın zaman-zaman gerçəkləşdirdiyi eksperimentlərdən biridir.

Elmira Hüseynova öz əsərində C.Cabbarlını istedadlı şəxsiyyət, alovlu vətənpərvər, həyat hadisələrinə cəsarətlə müdaxilə edən insan kimi görmüş və onu bir qədər fərqli tərzdə materiala həkk etmişdir. Məşhur şairin portreti barelyef kimi təsvir olunub. Bu təsvir öz dinamikliyi ilə şairin yaradıcı xarakterini, psixologiyasını daha dərindən açır. Cəfər Cabbarlının məzarüstü abidəsinin ümumi ölçüsü 8 metrdir. Fon kimi verilmiş 2 metrlik qranitin üzərində 1,75 sm ölçüdə dramaturqun tunc barelyef portreti yapılıb. Abidə

rakurs orijinallığına görə Fəxri Xiyabanda olan qəbirüstü abidələrdən və ümumiyyətlə dövrün heykəltəraşlıq nümunələrindən geniş şəkildə fərqlənir. Sərt keçidlər və qabarıq yapmalar ekspressiv üslub yaradıcılığının parlaq nümunəsi sayıla bilər. Profil görünüşdən qara mərmər lövhə üzərində tuncdan olan abidənin sanki əlini daş divara dayayaraq narahat dünyasının təəssüratını tamaşaçısına yaşadan rəssam əsərdə romantik-lirik duyğunu xüsusilə önə çəkmişdir. Yonularaq daş üzərində həkk edilmiş adi təsvirçilik manerasından uzaq, yaşantıları, daxilin dünyanın tərənnümünü E.Hüseynova yüksək məharətlə həyata keçirməyə nail olmuşdur.

Fəxri xiyabanda çox az kompozisiyalara rast gəlmək olar ki, onlar öz forma və məzmun baxımından digərlərindən fərqlənsin. Bu mənada C.Cabbarlının abidəsi forma və kompozisiya baxımından digərlərindən tamamilə fərqlidir. Burada müəllif öz təxəyyülündən qaynaqlanan obrazla onun bədii irsi arasında plastik əlaqə yarada bilmişdir.

Ziyadxan Əliyev qeyd edir ki, *"Elmira Hüseynovanın xatirə xarakterli əsərlərində heykəltəraşlığımızın inkişafına xidmət edən sənət nümunələridir. Bu sahədə onun ilk yaradıcılıq işi Cəfər Cabbarlıya həsr etdiyi qorelyefdir. Yazıçı iş başında təsvir edilmişdir. Əsər dekorativliyi, plastikası və kompozisiya tapıntısı ilə diqqəti cəlb edir. Başın güclü dönümü, siluetin gərginliyi, işıq-kölgənin yaratdığı səthlərin təzadı qorelyefə xüsusi görkəm və məzmun vermişdir"* [3. s.8].

Görkəmli dramaturqun adının yazıldığı hissənin belə ümumi kompozisiya tabe edilməsini kiçik detal hesab etmək doğru fikir olmazdı. İri lövhə tipli xəttin abidənin aşağı hissəsi ilə birləşər eyni fakturada yonulmuş oyuq şriftlərlə verilməsi bütün kompozisiyaya vahidlik bəxş etmişdir. İri hərflərlə daşa həkk edilmiş ad, soyad özlüyündə bir qüruru, fəxarəti yaşadır.

Sənətkarın Fəxri xiyabanda yer alan daha bir əsəri Azərbaycanın xalq şairi, dramaturq, ictimai xadim, əməkdar incəsənət xadimi Rəsul Rzanın xatirəsinə ucaldılmış memorial-xatirə abidəsidir. 1983-cü ildə yaradılmış əsər heykəltəraşın digər memorial nümunələri ilə ümumi, səciyyəvi xüsusiyyətlərin olmasına baxmayaraq, burada dəyişik bədii ifadə xüsusiyyəti nəzərə çarpır və daha öncə sadalanan heykəltəraşın vurğulanan bədii xüsusiyyətlərini məhz bu abidədə görmək mümkündür. Qəbir üstü abidə qranit blok qorelyef şəklində həll olunmuşdur. Fon bütünlüklə işlənmiş və fakturalı hala gətirilmişdir, 70 sm-lik qorelyef portret sol hissədə yerləşərək, yarpaqdan ibarət nəbati elementlərlə əhatə olunmuşdur. Burada müəllif qraniti hiss etməklə işləmiş, onun hər bir detalına bədii tutum verməyə nail olmuşdur. Başın çətinliklə sezilən hərəkəti və obrazın üz cizgiləri – düşüncəli baxış, əzaların bir qədər sərt-ciddi təqdimatı, saçların lakonik təqdimatı müəllif tərəfdən yüksək sənətkarlıqla, şairin poetik ruhuna müvafiq tutumda plastik tutum almışdır. Hər bir materialın

özünəməxsus keyfiyyətlərinə yaxşı bələd olan və daha çox əsərlərində formaların sərtliyinə üstünlük verən E.Hüseynova burada plastikliyin ahəngdarlığını əldə etməklə, yeri gələndə mövzuya münasib və gözlənilməz ola bildiyini sərgiləmişdir.

Bu əsərdə müəllif Azərbaycan heykəltəraşlığında ilk dəfə olaraq portretlərin kompozisiyalarına obrazları zənginləşdirən, onların daxili aləmini aşkarlayan məntiqi atributlar daxil etmişdir. Xalq şairinin düşüncələrə dalmış portretində isə sol tərəfdə dekorativ formanın boşluğunda çiçəkləyən kiçik ağac budağı verilmişdir. Obrazların konstruktiv aydınlığı bütövlükdə onların daxili və zahiri xarakterlərini özünə tabe edən plastik üslub E.Hüseynovanın müxtəlif maraqlı əsərlərin müəllifi kimi tanıtmışdır.

Cəfər Cabbarlının qəbirüstü abidəsindən fərqli olaraq Rəsul Rzanın abidəsində şairin nəzərləri önə, oxucularına, onu sevənlərə yönəlmişdir. Heykəltəraş yazıçının fiqurunda poetik bir ritm və obrazlı siluet əmələ gətirməklə, həmçinin əlavə olunmuş nəbati ornamentlərlə yaradılan portretin şair ruhlu şəxs olmasını daha da qüvvətləndirərək abidənin plastik həllini mükəmməl ahəngdarlıq ilə fərqləndirməyə nail olmuşdur. Düzgün tapılmış nisbətlər kompozisiya və qəbirüstü lövhə arasında çox uğurlu bir ahəngdarlıq yaratmağa imkan vermişdir. O, R.Rzanın qəbirüstü abidəsini işlədiyi zaman, memarlıq məkan mühitində qoyulan heykəlin əsas prinsiplərindən olan – memarlıq və ətraf mühitə uyğunluğuna sadiq qalmış, miqyasın qorunub saxlanması baxımından kompozisiyanın hər nöqtədən uğurlu görünməsinə diqqət yetirmişdir. Yaşıllığın arasında özünün daş fakturalı təəssüratı ilə yarpaqların arasından boylanan şairin arzuları sanki dil açıb yenə də oxucuları ilə danışacaq, onlara öz istəklərini izah edəcək.

Sakit və yaşıl iri ağacların olduğu, son mənzilin ünvanı olan məkanda heykəl öz əhatəsində sanki yeni bir mühit yaratmış, davam edən həyatın cismani yoxluğa bağlamından, ideyalarda davam etməsini izah etmişdir.

Əsər haqqında yekun və vahid fikir olaraq onu qeyd etmək olar ki, Elmira Hüseynovanın Azərbaycan heykəltəraşlıq məktəbinin mürəkkəb formalaşma prosesinə təsadüf edən yaradıcılıq mərhələsinə məxsus Rəsul Rza abidəsi hər şeydən öncə milli ənənələrə tapınmışdı. Bu dövrdə Azərbaycan heykəltəraşlarının ən mükəmməl əsərlərinin güclü tərəfi konkret xarakterlərin simasında sosial-tarixi ümumiləşmə ilə obrazların ifadəliyinin daxili gözəllik ilə ahəngdarlığının tapılması idi ki, qeyd edilən abidənin bədii həllində həmin nüanslar özünün ən kamil ifadəsinə nail olmuşdur.

Məlumdur ki, hər bir memorial abidə təkcə kiminsə xatirəsini əbədiləşdirən lövhə deyil. O, eyni zamanda özünəməxsusluğu ilə seçilən, tamaşaçını duyğulandırmaq, onun xatirələr məcmusunu “silkələmək” gücündə olan sənət əsəridir. Odur ki, bu amil həmişə onun yaradıcılarından obrazlarını

yaradacaqları şəxsiyyətlərin ömür yoluna xüsusi diqqət yetirməyi tələb edir. Elə bunun nəticəsidir ki, milli plastika sənətimizdə bu qəbildən olan gözəl nümunələr çoxdur. Əminliklə demək olar ki, Azərbaycan heykəltəraşlarının müxtəlif janrlarında yaradılmış əsərləri ilə bərabər onların görkəmli şəxsiyyətlərin xatirələrini əbədiləşdirən maraqlı xatirə lövhələrinə də rast gəlinir.

Belə abidələrin yaradılmasında Elmira Hüseynovanın xüsusi yaradıcı əməyi vardır. Onun bu səpkili əsərləri arasında Nobel mükafatı laureatı L.Landauya həsr olunmuş xatirə lövhəsini qeyd etmək olar. Bakının “Nizami Gəncəvi” küçəsində yerləşən bu xatirə lövhəsi (1987-ci il) maraqlı plastik həllinə görə diqqət çəkir.

Əsərdə alimin gərgin həyatından qaynaqlanan dərin ekspressiya, obrazın daxili enerjisinin simaya vuran gərginliyi dərin qırışlarla, seyrəkləşmiş baş hissənin açıq alnı ilə diqqəti çəkir. Gərginliyin təsirli ifadəsini vermək üçün qəhrəmanını profildən tərənnüm edən sənətkar onun bütün cizgilərində eyni ifadəni bir-birinə tabe edərək kompozisiya bütövlüyünə nail olmuşdur. Əllərin iri forması, uzun barmaqlar sanki bütün obrazın açıqlanmasında əsas element kimi diqqəti çəkir. Bir əli ilə sanki ətrafındakılara susma əmri verərək tədqiqatının ən dərinliyinə vararaq yeni elmi axtarışla haqqındakı düşüncəli anının bədii ifadəsini verən sənətkar, obrazın digər əli ilə açıq alnını tutaraq fərdi, özünəməxsus aləmini yaratmağa nail olmuşdur. Dodaqlar və burunun quruluşunda belə xarici bənzərlikdən əlavə xarakterliyin açılışı plastik sənətin imkanlarından maksimum istifadə ilə olduqca canlı verilmişdir.

Memorial lövhə müəyyən şəxsiyyətə həsr olunduğundan onun bədii şərhində əsasən adamın zahiri oxşarlığının əldə olunmasına çalışılır. Belə olan hallarda portret həm də məlumatın yer aldığı yazılı lövhədə daha çox haşiyəyə alınmış detala çevrilir. Yalnız təsvir və yazı miqyasının nisbəti sayəsində portret fonun elementləri arasında öz mahiyyətini itirmir. Elmira Hüseynovanın yaratdığı memorial lövhələrdə də bu mütənasibliyin əldə olunması ilə yanaşı, təsvir edilən insanların zahiri görünüşü ilə yanaşı daxili aləmlərinə də nüfuz açıq-aydın duyulur.

Lev Landauya həsr olunmuş xatirə lövhəsi heykəltəraşın demək olar ki, yaradıcılığında son işidir.

## Ədəbiyyat siyahısı:

1. Abdullayev K. Heykəltəraşın dostluq səfəri: (Əməkdar rəssam E.Hüseynovanın yaradıcılığı haqqında) – Bakı, 1977, 13 oktyabr.
2. Abdullayeva Ə. Zivər Məmmədova (1902-1980). Həyat Abdullayeva (1912-2007). Elmira Hüseynova (1933-1995) – Bakı: Şərq-Qərb, 2013. - 104 s.
3. Əliyev Z. Ana mövzusunun işığında: (heykəltəraş E.Hüseynovanın əsərləri) // "Bakı" qəz., 1984. 6 aprel
4. Həsənzadə M. Daşlarda ürək izləri: (Heykəltəraş E.Hüseynova haqqında) // "Kommunist" qəz., 1970, 7 yanvar.
5. Məhərrəmoğlu. Bir körpənin səsi, bir sənətkarın düşüncəsi: Heykəltəraş E. Hüseynova haqqında // "Ədəbiyyat və incəsənət" qəz., 1969. 2 May.
6. Məsimli E. Elmira Hüseynova heykəltəraşlıq sənətinə böyük töhfələr verib // Mədəniyyət. 2014.- 25 aprel.- S. 12.
7. Seyidəhmədli G. Azərbaycan memorial heykəltəraşlığının bədii xüsusiyyətləri (Fəxri Xiyabanın abidələri əsasında) – Bakı, 2020.

**Нармина Халил кызы Рзаева**

## РОЛЬ МЕМОРИАЛЬНОЙ СКУЛЬПТУРЫ ЭЛЬМИРЫ ГУСЕЙНОВОЙ В АРХИТЕКТУРНО-ПРОСТРАНСТВЕННОЙ СРЕДЕ

**Резюме:** В статье представлена информация о мемориальных памятниках в архитектурной среде, созданных заслуженным художником и скульптором Эльмирой Гусейновой в разные периоды её творчества. Эльмира Гусейнова – одна из художников, попробовавших себя в области монументальной мемориальной скульптуры и добившаяся на этом пути больших успехов.

Памятники, созданные Эльмирой Гусейновой в мемориальной скульптуре, воздвигнуты в основном в Первой Аллее Почетного Захоронения: надгробные памятники, посвященные памяти Мехти Гусейна, Джафара Джаббарлы и Расула Рзы. Мемориальная доска Л.Ландау считается одной из последних работ художницы.

**Ключевые слова:** скульптура, мемориал, архитектура, памятник, пластика, композиция.

**Narmina Khalil gizi Rzayeva**

# THE ROLE OF ELMIRA HUSEYNOVA'S MEMORIAL SCULPTURE IN THE ARCHITECTURAL SPATIAL ENVIRONMENT

**Summary:** The article provides information about the monuments created by the honored artist and sculptor Elmira Huseynova in different periods in the architectural environment. Elmira Huseynova is one of the artists who tried herself in the field of monumental memorial sculpture and achieved great success in this way.

Monuments created by Elmira Huseynova in memorial sculpture were erected mainly in the First Alley of Honor: graveside monuments dedicated to the memory of Mehdi Huseyin, Jafar Jabbarli and Rasul Rza. Lev Landau's memorial plaque is considered one of the last works of the artist.

**Key words:** Sculpture, memorial, architecture, monument, plastic, composition

**Məqalənin redaksiyaya daxil olma tarixi: 09.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**